# Hüquqi yardım göstərilib

Prezident İlham Əliyevin ötən il fevralın 22-də imzaladığı "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama əsasən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşəbbüsü ilə "BHM və partnyorları" vəkil bürosu tərəfindən Qəbələ Mədəniyyət Mərkəzində aztəminatlı əhaliyə ödənişsiz hüquqi yardım göstərilib.

Kollegiyanın üzvləri Qəbələ və ətraf rayonlarda yaşayan 30-dan çox vətəndaşa müxtəlif növ hüquqi yardım göstərib, onların problemləri ilə tanış olub, müvafiq məsləhətlər veriblər.

Ölkə başçısının sərəncamının icrası ilə əlaqədar bu tədbirlər respublikanın digər regionlarında da təşkil olunması nəzərdə tutulub.



**"Qəbələ"**

# Orqanizmə faydalı təsir göstərir

Çərəzlərin faydası hələ eramızdan əvvəl də insanlara məlum idi. Onlardan ən faydalısı qoz-fındıqdır. Tərkibində E vitamininin olduğuna görə bu çərəz yaddaşı gücləndirir, əqli fəaliyyəti stimullaşdırır, yaşlı insanlarda yaddaş zəifliyinin inkişaf etməsi ehtimalını azaldır.

Kalsium, kalium, dəmir, maqnezium, yod, fosfor, selen və müxtəlif vitaminlər, yağ turşuları, zülallarla zəngin olan qoz, fındıq, badam, yerfındığı və hind qozu ürək-damar sistemi üçün çox faydalıdır. Atereskleroz, qan azlığı, damar və ürəyin işəmik xəstəlikləri zamanı onlar yaxşı profilaktik və müalicəvi səmərə verir. Tərkibində çoxlu miqdarda yodun olmasına görə qoz-fındıq qalxanvarı vəzi xəstəlikləri olanlar üçün də çox xeyirlidir. Onunla qidalanmaq mübadilə proseslərini və qaraciyərin fəaliyyətini yaxşılaşdırır, fiziki gücü artırır, əzələlərə müsbət təsir göstərir.



Yaz avitaminozları zamanı həmin çərəzlər insanı sağlamlıq üçün çox vacib olan vitaminlərlə təmin edir. Yazda digər meyvə-tərəvəzdə vitamin az miqdarda qaldığı halda qoz-fındıqda faydalı maddələr hətta bir neçə il ərzində saxlanılır.

Müsbət xüsusiyyətləri ilə yanaşı, qoz-fındığın bəzi özəllikləri də var. Allergiyaya səbəb olduğuna görə fiziki cəhətdən sağlam olanlar da həmin məhsulları ifrata varmadan məhdudlaşdırılmış miqdarda qəbul etməlidirlər. Gün ərzində 30-50 qram qoz-fındıq yemək orqanizmin həmin çərəzlərin tərkibindəki maddələrə olan ehtiyacını tam ödəyir.

# Eyni anda 10 dili anlayan sistem yaradılıb

Yaponiyada "Mitsubishi Electric" şirkətinin tədqiqatçıları eyni anda 10 dili anlayan sistem hazırlayıblar.

AZƏRTAC xəbər verir ki, yeni sistemdən həm turizm, həm də digər sahələrdə istifadə edilməsi nəzərdə tutulur.

Yeni texnologiya müxtəlif dilləri hər bir şəxsin səsinə və leksikonuna uyğun olaraq başa düşmək üçün süni intellektdən istifadə edir.




Şirkətin mütəxəssisləri sistemdən əməli işdə istifadə etməmişdən əvvəl onun dəqiqliyini daha da təkmilləşdirmək niyyətindədirlər.

# Bilirsinizmi?

- Yerfındığı dinamitin tərkib hissələrindən biridir.
- Yuxunun qaçırmaq üçün alma yemək qəhvə içməkdən daha təsirlidir.
- "Kalendar" sözü latın dilindən tərcümədə "borc kitabı" deməkdir.
- Pişiklərin hər qulağında 32 əzələ var.
- İnsan həyatı boyu təxminən min dəfə dərisini dəyişir.
- Bir il ərzində insan ürəyi 36.800.000 dəfə döyünür.
- Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152.792 poçt şöbəsi fəaliyyət göstərir.
- Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.
- 1998-ci ilə qədər Everest zirvəsinə çıxmağa çalışan 918 adamdan 146-sı ölmüşdür.

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Salamov Salam Süleyman oğluna** verilmiş JN seriyalı 191 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Cəbrayılov Cəbrayıl Oruc oğluna** verilmiş JN seriyalı 1050 nömrəli (kod 40600048) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Hacıalılı Bələdiyyəsi tərəfindən Hacıalılı kənd sakini **Dadaşov Arif Şahismayıl oğluna** torpaq sahəsinin satılması barədə 27 aprel 2006-cı il tarixli 04 saylı **qərar,** 14 may 2006-cı il tarixli, 323 nömrəli **torpağın alqı- satqısına dair akt** və 23 aprel 2006-cı il tarixli **kassa mədaxil orderi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 avqust 2004-cü il tarixli 06 saylı qərarı və 10 avqust 2004-cü il tarixli icarə müqaviləsi ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Məmmədova Əfsarə Bəxtiyar qızına** verilmiş JN seriyalı 5436 nömrəli (kod 40600038) **torpağın müvəqqəti istifadə hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

AR ƏMDK yanında Daşınmaz əmlakın dövlət reyestri xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 13 may 2011-ci il tarixdə Soltannuxa kənd sakini **Quluyev Ramil Qüdrət oğluna** verilmiş MA seriyalı 0204191 nömrəli (reyestr nömrəsi 406013008246--10301, qeydiyyat nömrəsi 1911002006) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

## Yurdumuza Novruz gəlir

# Od çərşənbəsi–Novruzun ikinci çərşənbəsi

Od çərşənbəsi - Novruzun ikinci çərşənbəsidir.

Bu il Od çərşənbəsi 5 mart tarixinə təsadüf edir. Azərbaycanlıların qədim bayramlarından biri olan Novruz yaradılışın mərhələlərini əks etdirən dörd ünsür - su, od, yel və torpaqla bağlı mərasimlərin qeyd olunması ənənələrini özündə birləşdirir. İlin axır çərşənbələrindən ikincisi xalq arasında Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, həmin gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.

Günəş istisini arzulayan ulu babalarımız od çərşənbəsində sübh tezdən Günəşə qurban apardılar. Böyük tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr oxuyardılar. Tonqal sönəndən sonra qızlar və oğlanlar külü yığıb onu kəndin kənarına, ya da yola səpirdilər. Bu bir növ tonqal üzərindən atılan adamların azarının çıxıb getməsini simvolizə edir. Qədim dövrdə tonqalı



yetkinlik yaşına çatmamış oğlan uşağı çaxmaq daşı vasitəsilə qalayardı. Belə od müqəddəs sayılardı. Tariximizdə elə dövrlər olub ki, odun üzərindən atlanmaqla məhkumlar xilas olublar. Deməli günahsızdır ki, od onu yandırmayıb.

Od çərşənbəsinin digər maraqlı mərasimlərindən biri də həmin il ailə üzvlərindən birini itirmiş evlərin qarşısında tonqal qalamaqdı. Od yandırmaqla həmin ailənin saxladığı yas mərasiminə son qoyulardı. İnsanlara Uraz, Araz (od, ataş) adının verilməsi, evlərdə üzərrik yandırılması, xəbis ruhlardan qorunmaq məqsədilə qoyun sürülərinin yanmaqda olan kolların altından keçirilməsi, təndirin müqəddəs sayılması, ondan arzuların gerçəkləşməsinin istənilməsi, yanmaqda olan ocağı söndürməmək və məzar daşların üzərində atəşdanların həkk edilməsi və başqa nümunələr də qədim türklərin oda olan hörmət və ehtiramını göstərir. Keçmişdə evlərdə ocağı sönməyə qoymurdular. Yalnız kimsə ölmüş olarsa odu çıxarıb xüsusi yerdə saxlayır və qış vaxtı 5 gündən sonra, yayda isə bir aydan sonra odu evə qaytarardılar.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1750